Qiyabi şöbədə ali təhsilin bakalavriat səviyyəsində qiyabi təhsilalma forması üzrə təsdiqlənmiş akademik təqvim əsasında təhsil proqramlarının və tədris planlarının tələblərinə uyğun olaraq tədris prosesi təşkil edilir.

Qiyabi təhsilalma forması üzrə tədris ili 32 həftədir. Hər semestr 16 həftədən (o cümlədən, 1 həftə imtahan sessiyası) ibarətdir və hər semestrə 24 kredit müəyyənləşdirilir.

İxtisasın (ixtisaslaşmanın) təhsil müddətindən asılı olaraq, tələbələrə bakalavriatda 240-300 kredit *(əsas (baza ali) tibb təhsilində 300-360 kredit)*, magistraturada təhsilin normativ müddəti 1,5 il olduğu halda 90, 2 (iki) il olduğu halda isə 120 kredit müəyyənləşdirilir. Müəyyən olunmuş kreditin tələbə tərəfindən yığılması məcburidir.

Mütəxəssis hazırlamaq işində çevikliyi və ayrı-ayrı şəxslərin əlavə ixtisas təhsili almaq arzusunu təmin etmək məqsədi ilə təkrar *ali, orta ixtisas və yüksək texniki peşə* təhsili bu təhsili almaq istəyən şəxslərlə və ya onların işlədikləri idarə və təşkilatlarla müvafiq təhsil müəssisəsi arasında bağlanmış müqavilələr və fərdi müraciətlər əsasında həyata keçirilir.

Naxçıvan Dövlət Universitetində qiyabi təhsil üzrə aşağıda qeyd olunan 24 ixtisas üzrə mütəxəssis hazırlığı həyata keçirilməkdədir:

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

Qiyabi təhsil üzrə ixtisaslar

№	İxtisasın adı
1	Musiqişünaslıq
2	Tarix
3	Kitabxanaçılıq və informasiyanın təşkili
4	Filologiya
5	Muzey, arxiv işi və abidələrin qorunması
6	İqtisadiyyat
7	Mühasibatlıq
8	Maşqçilik
9	Meliorasiya mühəndisliyi
10	Yerüstü nəqliyyat vasitələri mühəndisliyi
11	Ekologiya mühəndisliyi
12	Energetika mühəndisliyi
13	İnstrumental ifaçılıq (Xəlq çalğı alətləri)
14	Biologiya
15	Hüquqşünaslıq

Əlavə (təkrar) ali təhsil üzrə

№	İxtisaslar
1.	Musiqişünaslıq
2.	Psixologiya
3.	İqtisadiyyat
4.	Mühasibat
5.	İnformasiya texnologiyaları
6.	Beynəlxalq münasibətlər
7.	Hüquqşünaslıq
8.	Tarix
9.	Filologiya